Azərbaycan Respublikası Maliyyə Nazirliyinin
2006-ci il 18 aprel tarixli İ-38
nömrəli əmri ilə təsdiq edilmişdir

# 2 №-li KOMMERSİYA TƏŞKİLATLARI ÜÇÜN MİLLİ MÜHASİBAT UÇOTU STANDARTI

# "KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ÜZRƏ"

## MÜNDƏRİCAT

Ümumi müddəalar ........................................ 3
Əsas anlayışlar ........................................ 4
Kapitalın komponentləri ........................................ 5
Kapitalın  tanınması və qiymətləndirilməsi........................................ 6
Geri alınmış kapital (səhmlər)........................................ 7
Kapitalın saxlanılması üzrə düzəlişlər ........................................ 9
Təqdim edilmə  və açıqlamalar ........................................ 9
Standartın ilk dəfə tətbiq edilməsi ........................................ 11
Keçid dövrünün şərtləri........................................ 11
Qüvvəyə minmə tarixi........................................ 11
Əlavə 1 - "Kapitalda dəyişikliklər haqqında hesabat üzrə" 2№li Milli Mühasibat Uçotu Standartının "Maliyyə hesabatlarının təqdimatı" adlı 1№li Mühasibat Uçotunun Beynəlxalq Standarti ilə müqayisəsi........................................ 12
Əlavə 2 – "Kapitalda dəyişikliklər haqqında hesabat"........................................ 13

## 2 № li KOMMERSİYA TƏŞKİLATLARI ÜÇÜN MİLLİ MÜHASİBAT UÇOTU STANDARTI

## "KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ÜZRƏ"

### ÜMUMİ MÜDDƏALAR

**Standartın təyinatı**

1. Bu standart «Mühasibat Uçotu haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırlanmışdır və "Maliyyə hesabatlarının təqdimatı" adlı 1 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsaslanmışdır.

**Maliyyə hesabatlarının təqdim edilməsi**

2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hebatlarını dövlət orqanlarına qanunvericilik aktları ilə, digər şəxslərə isə nizamnamələri ilə müəyyən olunmuş hallarda, qaydada və müddətlərdə təqdim edirlər.

**Məqsəd**

3. Bu standartın məqsədi müəssisələr tərəfindən kapitalda dəyişikliklərin tanınmasının, qiymətləndirilməsinin və təqdimatının ardıcıl və şəffaf qaydada təmin edilməsidir.

**Standartın tətbiqi sahəsi**

4. Bu standart ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatları tərəfindən Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq illik maliyyə hesabatlarının tərkib hissəsi kimi tərtib edilmiş Kapitalda dəyişikliklər haqqında hesabata və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına tətbiq edilir. Standartda istifadə edilən terminlər səhmdar cəmiyyətlərə aid edilir, digər müəssisələr isə ekvivalent olan terminlərdən istifadə etməlidir.

5. İctimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatları öz seçimləri əsasında maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq təqdim edə bilərlər.

6. Bu standart, Uçot Qaydaları və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının Tətbiqi üzrə Şərhlər və Tövsiyələrdə öz əksini tapmış əlavə müddəalar nəzərə alınmaqla tətbiq olunmalıdır.

7. Mühasibat uçotunu tənzimləyən qüvvədə olan normativ-hüquqi aktlar ilə bu Milli Mühasibat Uçotu Standartı arasında ziddiyyət yarandığı halda, Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı tətbiq edilir.
8. Digər müəssisənin alınması ilə birbaşa bağlı olan səhmlərin buraxılması üzrə məsrəflər bu standart ilə tənzimlənmir.

9. Digər Milli Mühasibat Uçotu Standartlarında təqdim edilən kapitalın saxlanılması üzrə düzəlişlərin uçotu ilə bağlı məsələlər bu standart ilə tənzimlənmir.

**ƏSAS ANLAYIŞLAR**

10. Bu standartda istifadə edilmiş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Kapital** – bütün öhdəliklər çıxıldıqdan sonra, müəssisənin aktivlərinin dəyəridir.

**Kapital aləti** – bütün öhdəliklər çıxıldıqdan sonra, müəssisənin aktivlərindəki qalıq payını təsdiqləyən hər-hansı müqavilədir.

**Müəssisənin nizamnamə kapitalı** – qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq qeydiyyata alınmış təsis sənədlərində müəyyən edilmiş müəssisənin kapitalının miqdarıdır. Səhmdar cəmiyyətin nizamnamə kapitalı bütün təyin olunmuş səhmlərin müvafiq nominal dəyərlərinin cəminə bərabərdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə əsasən, müəssisənin nizamnamə kapitalı bu müəssisə qeydiyyata alınanadək tam buraxılmalı və ödənilməlidir.

**Ödənilmiş nizamnamə kapitalı** – müəssisənin nizamnamə kapitalının mülkiyyətçilər (səhmdarlar) tərəfindən ödənilmiş hissəsidir.

**Emissiya gəliri** – buraxılmış səhmlərə görə nominal dəyərindən artıq ödənilmiş məbləğdir.

**Emissiya güzəşti** – səhmlərin buraxılış qiymətinin nominal dəyərindən aşağı olduğu halda, bu məbləğlər arasındakı fərqdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1077.2-ci bəndinin tələblərinə əsasən, səhmlərin nominal dəyərindən aşağı qiymətlə ilkin yerləşdirilməsinə yol verilmir.

**Geri alınmış kapital (səhmlər)** –sonrakı dövrlərdə yenidən buraxılması üçün və ya tam ləğv olunanadək müəssisə tərəfindən tutulub saxlanılan geri alınmış öz səhmləridir.

**Ödənilmiş kapital** – mülkiyyətçilərin (səhmdarların) öz səlahiyyətləri daxilində etdikləri köçürmələr nəticəsində kapitalda yaranan artımdır. Səhmdar cəmiyyətlər üçün ödənilmiş kapital ödənilmiş nizamnamə kapitalının və emissiya gəlirinin cəmindən geri alınmış kapital çıxıldıqdan sonra qalan məbləğdir.

**Qazanılmış kapital** – müəssisənin mövcud olduğu bütün dövrlər ərzində hesabat tarixinə yığılmış aşağıdakılar hesab olunur:

(1) müvafiq Milli Mühasibat Uçotu Standartının müddəalarına uyğun olaraq, kapitalda birbaşa tanınan sair gəlirlərdən kapitalda birbaşa tanınan sair xərclər çıxıldıqdan sonra qalan məbləğ;

(2) müəssisənin xalis mənfəətindən dividendlər və digər bölüşdürülmələr çıxıldıqdan sonra qalan məbləğ.

**Kapital ehtiyatları** – müəssisədə müəyyən məqsədləri üçün saxlanılan və mülkiyyətçilər (səhmdarlar) arasında bölüşdürülməsi mümkün olmayan qazanılmış kapitalın hissəsidir.

**Bölüşdürülməmiş mənfəət** – mülkiyyətçilər (səhmdarlar) arasında bölüşdürülməsi mümkün olan qazanılmış kapitalın hissəsidir.

**Səhmlərin buraxılması üzrə məsrəflər** – müəssisənin səhmlərinin və digər kapital alətlərinin buraxılması üçün birbaşa və xüsusi olaraq çəkdiyi məsrəfləridir.

**Əhəmiyyətli səhv** – bir və ya bir necə əvvəlki dövrlər üzrə maliyyə hesabatlarının öz təqdimat tarixlərinə artıq etibarlı hesab edilə bilməyəcəyinə səbəb olan cari dövrdə aşkar edilmiş səhvdir.

## KAPİTALIN KOMPONENTLƏRİ

11. Kapitalın uçotu aşağıdakı əməliyyatları nəzərdə tutur:

(a) müəssisənin yaradılmasını, səhmlərin buraxılmasını və ödənilməsini;
(b) yeni səhmlərin buraxılması və ya buraxılmış səhmlərin geri alınması kimi müəssisə və səhmdarlar arasında hər hansı sonrakı əməliyyatları;
(c) dividendlərin və onlara oxşar məbləğlərin ödənilməsini;
(ç) kapital ehtiyatlarının yaradılmasını və istifadə edilməsini;
(d) hesabat dövrü ərzində tanınan, lakin Mənfəət və zərər haqqında hesabatda əks etdirilməyən, kapitalın saxlanmasına düzəlişlərin tanınmasını;
(e) hesabat dövrünün xalis mənfəətinin bölüşdürülməmiş mənfəətə köçürülməsini.

12. Mühasibat balansında və Kapitalda dəyişikliklər haqqında hesabatda aşağıdakı komponentlər təqdim edilməlidir:

- ödənilmiş nizamnamə kapitalı;
- emissiya gəliri;
- geri alınmış kapital (səhmlər);
- kapital ehtiyatları;
- bölüşdürülməmiş mənfəət.

## KAPİTALIN TANINMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

### Ödənilmiş nizamnamə kapitalı

13. Müəssisənin buraxılmış nizamnamə kapitalı bu müəssisə qeydiyyata alınanadək təsisçi tərəfindən tam ödənilməlidir. Müəssisənin yaradılmasından sonra yeni səhmlər buraxıldıqda, müəssisənin əlavə buraxılmış nizamnamə kapitalı müəyyən vaxt ərzində ödənilməmiş qala bilər. Bu zaman , kapitalın ödənilməmiş hissəsi ödənilməmiş nizamnamə kapitalı kimi qeydə alınmalıdır. Hesabat tarixinə ödənilmiş nizamnamə kapitalının məbləği hesablandıqda, ödənilməmiş nizamnamə kapitalının məbləği kapitalda uçota alınmış buraxılmış nizamnamə kapitalının məbləğindən çıxılmalıdır. Hesabat tarixinə yalnız ödənilmiş nizamnamə kapitalı Mühasibat balansında tanınır və Kapitalda dəyişikliklər haqqında hesabatda təqdim edilir, qalan ödənilməmiş nizamnamə kapitalı Kapitalda dəyişikliklər haqqında hesabatın qeydlərində ayrıca göstərilməlidir.

14. Qeyri-pul aktivləri formasında mülkiyyətçilərin kapital qoyuluşları bu aktivlərin ədalətli dəyəri ilə qiymətləndirilir. Əgər bu aktivlərin ədalətli dəyəri səhmlərin nominal dəyərindən yüksəkdirsə, onda, bu iki dəyər arasındakı fərq emissiya gəliri kimi, əks halda (yalnız qanunvericiliklə qadağan olunmadığı hallarda) emissiya güzəşti kimi uçota alınmalıdır.

15. Ödənilmiş nizamnamə kapitalı müəssisə tərəfindən buraxılmış səhmlərin nominal dəyərinin azaldılması və ya onların geri alınması nəticəsində azala bilər.

### Emissiya gəliri

16. Buraxılan səhmlər nominal dəyərindən artıq məbləğə satıldıqda, müəssisə emissiya gəliri əldə edir. Emissiya gəliri səhmlərin faktiki qiyməti ilə nominal dəyəri arasındakı fərq kimi hesablanır və müəssisənin kapitalının ayrıca hissəsi kimi uçota alınmalıdır.

### Emissiya güzəşti

17. Qanunvericiliklə müəyyən edilmiş hallarda buraxılmış səhmlər nominal dəyərindən az məbləğə satıla bilər. Bu hal, səhmlərin nominal dəyərinə emissiya güzəştilə buraxılması kimi qəbul edilir.

18. Bu emissiya güzəştinin məbləği aşağıdakı qaydada uçota alınmalıdır:

    (a) bölüşdürülməmiş mənfəətdən ödənilmiş nizamnamə kapitalına köçürülməlidir;
    (b) bölüşdürülməmiş mənfəətin qalığı kifayət qədər olmasa, ödənilməmiş qalan məbləğ hesabat dövrü üzrə ödənilməmiş zərər kimi tanınmalıdır və xüsusilə açıqlanmalıdır.

**Bölüşdürülməmiş mənfəət**

19. Cari və keçmiş hesabat dövrləri üzrə yığılmış bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) kapitalın komponenti kimi tanınmalıdır. Cari hesabat dövrünün bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) cari hesabat dövrü üzrə Mənfəət və zərər haqqında hesabat hazırlandıqdan sonra müəyyən edilir. Cari ilin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) kapital ehtiyatlarına və kapital ehtiyatlarından köçürülmələr də nəzərə alınmaqla, hesabat dövründə xalis mənfəətdən hesablanmış dividendlər çıxılmaqla yekun məbləğdə qiymətləndirilir.

20. Yığılmış bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) bütün əvvəlki dövrlərin bölüşdürülməmiş mənfəətlərinin (ödənilməmiş zərərlərinin) cəmini əks etdirir. Bölüşdürülməmiş mənfəət mülkiyyətçilər (səhmdarlar) arasında bölüşdürülə bilər. Bu yığılmış mənfəət maliyyə hesabatında kapitalın ayrıca komponenti kimi təsnifləşdirilir.

**Kapital ehtiyatları**

21. Kapital ehtiyatları müəssisənin müəyyən məqsədləri üçün saxlanılan, o cümlədən kapitalda birbaşa tanınan sair gəlirlərdən kapitalda birbaşa tanınan sair xərclər çıxıldıqdan sonra istifadə edilməmiş məbləğini və xüsusi məqsədlər üçün nəzərdə tutulmuş yığılmış xalis mənfəəti özündə əks etdirən və mülkiyyətçilər (səhmdarlar) arasında bölüşdürülməsi mümkün olmayan qazanılmış kapitalının bir hissəsidir. Kapital ehtiyatları qanunvericilik tələblərinə, müəssisənin nizamnaməsinə və müəssisənin rəhbərliyinin qərarına uyğun olaraq, xalis mənfəətdən ayırmalar şəklində yaradılır. Xüsusi məqsədlər üçün yaradılan ehtiyatlar başqa təyinatlar üzrə istifadə edilə bilməz. Müəssisə ehtiyatların yaradılmasını tələb edən məqsədlərə nail olduqda və ya bu məqsədlər dəyişildikdə, həmin ehtiyatlar bölüşdürülməmiş mənfəətə əlavə edilməlidir.

**Səhmlərin buraxılması üzrə məsrəflər**

22. Müəssisənin səhmlərinin buraxılması üzrə məsrəflər, müvafiq mənfəət vergisi çıxılaraq, emissiya güzəşti kimi uçota alınmalıdır. Uğursuz elan olunmuş səhmlərin və digər kapital alətlərinin buraxılması ilə bağlı məsrəflər müvafiq dövrün xərcləri kimi tanınmalıdır.

**GERI ALINMIŞ KAPITAL (SƏHMLƏR)**

**Səhmlərin geri alınması**

23. Müəssisə geri alınmış səhmləri sonrakı dövrlərdə yenidən buraxmaq və ya tam ləğv etmək məqsədilə tutub saxlayarsa, bu səhmlər ödənilmiş nizamnamə kapitalı və emissiya gəlirinin cəminin azalması kimi göstərilir və ayrıca uçota alınırlar.

24. Geri alınmış kapital (səhmlər) onun geri alınması üçün ödənilmiş pul vəsaitləri və ya onların ekvivalentləri məbləğində qiymətləndirilir.

**Geri alınmış səhmlərin təkrar buraxılması**

25. Geri alınmış kapital (səhmlər) sonrakı dövrlərdə yenidən buraxıldıqda, bu geri alınmış kapitalın (səhmlərin) tanınması dayandırılır.

26. Geri alınmış səhmlər onların geri alınması üçün ödənilmiş məbləğdən artıq qiymətlə yenidən buraxıldıqda, yaranmış qiymət fərqi emissiya gəlirinin artması kimi tanınır.

27. Geri alınmış səhmlər onların geri alınması üçün ödənilmiş məbləğdən aşağı qiymətlə yenidən buraxıldıqda, yaranmış qiymət fərqi emissiya gəlirinin azalması kimi tanınır.

28. Emissiya gəliri hesabının mövcud olmadığı və ya onun cari qalığının yaranmış qiymət fərqini ödəmək üçün kifayət etmədiyi hallarda, ödənilməmiş məbləğ bölüşdürülməmiş mənfəətin azalması kimi tanınır.

29. Emissiya gəlirinin və ya bölüşdürülməmiş mənfəətin qalığı kifayət qədər olmadıqda, qiymət fərqinin məbləği kapitalda ödənilməmiş zərər kimi tanınmalıdır.

30. Səhmlərin geri alınması və yenidən buraxılması ilə bağlı məsrəflər səhmlərin buraxılması üzrə məsrəflər ilə eyni qaydada uçota alınmalıdır.

**Geri alınmış səhmlərin ləğv edilməsi**

31. Səhmlərin ləğv edilməsi müəssisənin kapitalının azalmasını əks etdirir. Səhmlər geri alındıqda və dərhal ləğv edildikdə, bu əməliyyatın tanınma anı müəssisə tərəfindən geri alınmış səhmlərə görə sabiq səhmdarlara ödəniş tarixi hesab olunur. Səhmlərin ləğv edilməsi onların geri alınmasından daha sonrakı tarixdə baş verdikdə, bu əməliyyatın tanınma anı müəssisənin rəsmi qərar qəbul etdiyi tarix hesab olunur.

32. Geri alınmış səhmlər ləğv edildikdə, onların geri alınması üçün ödənilmiş məbləğ, müvafiq olaraq, bu səhmlərin mənsub olduqları səhmlər sinifi üzrə ödənilmiş nizamnamə kapitalından və emissiya gəlirindən, habelə, bu standartın 34-cü bəndində göstərilən hallarda, bölüşdürülməmiş mənfəətdən çıxılır.

33. Ödənilmiş nizamnamə kapitalının azalması ləğv edilən geri alınmış səhmlərin ümumi nominal dəyərinin məbləği ilə qiymətləndirilir.

34. Emissiya gəlirinin azaldılması geri alınmış səhmlərə aid edilən “emissiya gəliri” hesabındakı qalıq məbləğ ilə qiymətləndirilir.

35. Ləğv edilmiş səhmlərin geri alınması üçün ödənilmiş məbləğ bu səhmlərin nominal dəyərinin və onlara aid edilən “emissiya gəliri” hesabındakı qalıq

məbləğinin cəmindən fərqli olduqda, bu fərq cari ilin bölüşdürülməmiş mənfəətində dəyişikliklər kimi tanınmalıdır. Bu fərq müsbət olduqda, bölüşdürülməmiş mənfəətin azalması kimi tanınır. Əks halda, bu fərq bölüşdürülməmiş mənfəətin artması kimi tanınır. Bölüşdürülməmiş mənfəətin qalığının kifayət olmadığı hallarda, bu fərq hesabat dövrü üzrə ödənilməmiş zərər kimi tanınmalıdır.

## KAPITALIN SAXLANILMASI ÜZRƏ DÜZƏLIŞLƏR

36. Kapitalın saxlanılması üzrə düzəlişlərin üç növü mövcuddur:

(a) yenidən qiymətləndirmə ilə bağlı gəlirlər və xərclər;
(b) əsas cəmiyyətin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanması zamanı yaranan məzənnə fərqləri;
(c) əhəmiyyətli səhvlər və müəssisənin uçot siyasətinin dəyişdirilməsi ilə bağlı gəlirlər və xərclər.

37. Uzunmüddətli aktivlərin yenidən qiymətləndirilməsi nəticəsində yaranan və kapitalın komponenti (yenidən qiymətləndirmə üzrə ehtiyatı) kimi tanınan gəlirlərin və xərclərin uçot qaydaları uzunmüddətli aktivlərin uçotu haqqında müvafiq Milli Mühasibat Uçotu Standartları ilə tənzimlənir.

38. 35(b) bəndində göstərilmiş və kapitalın komponenti (məzənnə fərqləri üzrə ehtiyatı) kimi tanınan məzənnə fərqlərinin uçot qaydaları müvafiq Milli Mühasibat Uçotu Standartı ilə tənzimlənir.

39. Əhəmiyyətli səhvlər və müəssisənin uçot siyasətinin dəyişdirilməsi ilə bağlı və müəssisənin bölüşdürülməmiş mənfəətinə düzəlişlər kimi tanınan gəlirlərin və xərclərin uçot qaydaları müvafiq Milli Mühasibat Uçotu Standartı ilə tənzimlənir.

## TƏQDIM EDİLMƏ VƏ AÇIQLAMALAR

40. Müəssisə hesabat dövrü ərzində kapitalda dəyişikliklərin həcmi və səbəbləri haqqında informasiyanı əks etdirən Kapitalda dəyişikliklər haqqında hesabatı təqdim etməlidir.

41. Kapitalın komponentləri, bu standartda göstərildiyi kimi, ayrıca maddələrlə maliyyə hesabatlarında təqdim edilməlidirlər. Mühasibat balansındakı və Kapitalda dəyişikliklər haqqında hesabatdakı kapital maddələrinin təsnifatı istifadəçiyə müəssisənin kapital ehtiyatlarının, kapitalın tərkibinin və quruluşunun, eləcə də, kapitalın ayrı-ayrı komponentlərinin bölüşdürülməsi üzrə məhdudiyyətlərinin qiymətləndirməsinə imkan verməlidir.

42. Hesabat dövrü ərzində müəssisənin kapitalında baş verən aşağıdakı dəyişikliklər haqqında məlumat Kapitalda dəyişikliklər haqqında hesabata daxil edilməlidir:

(a) hesabat dövründə xalis mənfəət və ya zərər;

(b) ayrı-ayrı maddələr üzrə və ümumi məbləğ şəklində kapitalda birbaşa uçota alınmış gəlirlər və xərclər;
(c) əsas cəmiyyətin və azlıq təşkil edən mülkiyyətçilərin payları ayrı-ayrı göstərilməklə, hesabat dövrü üzrə ümumi gəlirlər və xərclər ((a) və (b) bəndlərində əks olunmuş məbləğlərin cəmi);
(ç) müvafiq Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq, keçmiş illərin bölüşdürülməmiş mənfəətinin ilin əvvəlinə olan qalıqlarına düzəlişlər kimi qeydə alınan uçot siyasətində dəyişikliklərin və əhəmiyyətli səhvlər üzrə düzəlişlərin ümumi məbləği;
(d) aşağıdakı məlumatlar Kapitalda dəyişikliklər haqqında hesabatda bilavasitə və ya ona aid qeydlərdə açıqlanmalıdır:
- mülkiyyətçilər tərəfindən kapitala pay qoyuluşu və mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi üzrə əməliyyatlar;
- hesabat dövrünün əvvəlinə və sonuna bölüşdürülməmiş mənfəətin qalıqları və hesabat dövrü ərzində bu maddə üzrə dəyişikliklər;
- hesabat dövrünün əvvəlinə və sonuna ödənilmiş kapitalın hər bir tərkib hissəsinin (ayrılıqda səhmlərin sinifləri üzrə) və hər bir kapital ehtiyatının qalığının uyğunlaşdırılması və hesabat dövrü ərzində bu maddələrdəki dəyişikliklər.

43. Aşağıdakı məlumatlar, səhmlərin sinifləri üzrə ayrılması şərtilə, müəssisənin maliyyə hesabatlarına əlavə edilmiş qeydlərdə açıqlanmalıdır:

(a) hər səhmin nominal dəyəri və ya səhmlərin nominal dəyərlərinin olmadığı faktı;
(b) buraxılmış səhmlərin sayı;
(c) hesabat dövrünün əvvəlində və sonunda buraxılmış, ödənilmiş və ödənilməmiş səhmlərin sayının uyğunlaşdırılması;
(ç) dividendlərin ödənilməsi və mülkiyyətçilərin iştirak paylarının geri alınması ilə bağlı məhdudiyyətlər də daxil olmaqla, müvafiq səhmlər sinfinə xas olan hüquqlar, imtiyazlar və məhdudiyyətlər;
(d) müəssisənin özünə, törəmə və asılı müəssisələrinə məxsus səhmlərin sayı;
(e) opsion və səhmlərin satışı üzrə müqavilələrin dəyəri və şərtləri göstərilməklə, həmin müqavilələrin yerinə yetirilməsi üçün saxlanılan səhmlərin sayı;
(ə) səhmlərin gələcəkdə geri alınması üzrə razılaşdırılmış öhdəliklər haqqında məlumat;
(f) girov kimi üçüncü tərəflərə verilmiş səhmlər haqqında məlumat;
(g) müəssisənin hər bir kapital ehtiyatının mahiyyətinin və məqsədinin təsviri;
(ğ) hər bir səhm üzrə müvafiq dividendlərin məbləği daxil olmaqla, maliyyə hesabatının təqdim edilmə tarixi ilə hesabat dövrünün sonu arasındakı zamanda təklif və ya elan edilmiş, lakin maliyyə hesabatlarında əks etdirilməmiş dividendlərin məbləği;
(h) hər hansı yığılmış imtiyazlı dividendlərin tanınmayan məbləği.

44. Səhmdar cəmiyyət olmayan müəssisələr yuxarıda göstərilən maddələrə ekvivalent olan məlumatları açıqlamalıdır. Bu məlumatlar hesabat dövrü ərzində kapital paylarının hər bir kateqoriyasındakı dəyişiklikləri və həmin kateqoriyaya aid edilən hüquqları, imtiyazları və məhdudiyyətləri əks etdirməlidir.

**STANDARTIN ILK DƏFƏ TƏTBIQ EDILMƏSI**

45. Bu standartın ilk dəfə tətbiq edilməsi zamanı əvvəlki hesabat dövrləri haqqında müqayisəli informasiyasının hazırlanması tələb olunmur.

**KEÇİD DÖVRÜNÜN ŞƏRTLƏRİ**

46. Bu standartın aşağıdakı bəndləri yalnız müvafiq Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tətbiqindən sonra qüvvəyə minəcəkdir:

(a) 7-ci və 41(c) bəndləri ( birləşdirilmiş maliyyə hesabatları hissəsində) – "Müəssisənin fərdi və konsolidə edilmiş maliyyə hesabatları" adlı 27№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı əsasında tərtib edilmiş Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqindən sonra;

(b) 41(b) bəndi – "Torpaq, tikili və avadanlıqlar" adlı 16 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı, "Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər" adlı 8№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı, "Xarici valyuta məzənnələrində dəyişikliklər" adlı 21№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı və "Qeyri-maddi aktivlər" adlı 38№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı əsasında tərtib edilmiş Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tətbiqindən sonra;

(c) 41(ç) bəndi – "Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər" adlı 8№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı əsasında tərtib edilmiş Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqindən sonra.

47. 14-cü bənd tələb edir ki, qeyri-pul aktivləri formasında mülkiyyətçilərin kapital qoyuluşları bu aktivlərin ədalətli dəyəri ilə qiymətləndirilsin. Ədalətli dəyəri açıqlayan Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı tətbiq edilənədək, qeyri-pul aktivlərinin ədalətli dəyəri müəssisənin təsis və ya ümumi yığıncağı tərəfindən müvafiq olaraq təsdiq edildiyi dəyəri ilə götürülür.

**QÜVVƏYƏ MİNMƏ TARİXİ**

48. Bu standartın qüvvəyə minmə tarixi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq əmri ilə müəyyən edilir.

**ƏLAVƏ 1 - "KAPITALDA DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT ÜZRƏ" 2№LI MILLI MÜHASIBAT UÇOTU STANDARTININ "MALIYYƏ HESABATLARININ TƏQDIMATI" ADLI 1№LI MÜHASIBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTI ILƏ MÜQAYISƏSI**

1. “Kapitalda dəyişikliklər haqqında hesabat üzrə” 2 №-li Milli Mühasibat Uçotu Standartı “Maliyyə Hesabatlarının Təqdimatı” adlı 1№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı və Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurasının Çərçivə Sənədi əsasında hazırlanmışdır. Bu Standartda qeyd edilmiş sənədlər arasında prinsipial fərqlər mövcud deyildir. Lakin, bu standartda öz əksini tapmış təfərrüatlar “Maliyyə Hesabatlarının Təqdimatı” adlı 1№-li Mühasibat Uçotunun Beynəlxalq Standartında daha məzmunludur, bu da Kapitalda dəyişikliklər haqqında hesabatın daha anlaşıqlı izah edilməsinə olan zərurətdən irəli gəlir.

2. “Kapitalda dəyişikliklər haqqında hesabat üzrə” 2№-li Milli Mühasibat Uçotu Standartı, əlavə olaraq, aşağıdakı məlumatların təqdim edilməsini tələb edir:

   (a) səhmlərin gələcəkdə geri alınması üzrə razılaşdırılmış öhdəliklər haqqında məlumatı (42 (ə) bəndi );

   (b) girov kimi üçüncü tərəflərə verilmiş səhmlər haqqında məlumatı (44(f) bəndi ).

   “Maliyyə Hesabatlarının Təqdimatı” adlı 1№-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən, belə məlumatın təqdim edilməsi vacib deyil.

3. 2№-li Milli Mühasibat Uçotu Standartına bu standartın ilkin tətbiqi üzrə əlavə bənd daxil edilmişdir (44-cü bənd). Bu bəndə əsasən, standartın ilk dəfə təqdim edilməsi zamanı əvvəlki hesabat dövrləri haqqında müqayisəli informasiyanın hazırlanması tələb olunmur.

4. 2№-li Milli Mühasibat Uçotu Standartına кeçid dövrünün müddəaları üzrə əlavə bənd daxil edilmişdir (45-ci bənd). Həmin bəndə əsasən, müvafiq Milli Mühasibat Uçotu Standartının tətbiqindən sonra bu standartın bəzi maddələrinin qüvvəyə minməsi, digər maddələrinin isə həqiqi mənaların kəsb edilməsi nəzərdə tutulur.

5. 2№-li Milli Mühasibat Uçotu Standartına əsasən, qeyri-pul aktivləri formasında mülkiyyətçilərin kapital qoyuluşlarının dəyəri bu aktivlərin ədalətli dəyəri ilə hesablanmalıdır. Keçid dövrünün müddəalarına ( 46-cı bənd ) əsasən, ədalətli dəyəri açıqlayan Milli Mühasibat Uçotu Standartı tətbiq edilənədək, qeyri-pul aktivlərinin ədalətli dəyəri bazar qiyməti əsasında götürülür.

## ƏLAVƏ 2 – “KAPITALDA DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT”

**"_____" müəssisəsi**
**Kapitalda dəyişikliklər haqqında hesabat**
**31 dekabr 20X2-ci il tarixinə**

**(manatla)**

| | Qeydlərə istinad | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülmə miş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən giymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərgləri üzrə ehtiyat | Qanunve ricilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| **1 yanvar 20X1-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | x(x) | x(x) |
| **1 yanvar 20X1-ci il tarixinə düzəlişlərdən sonra qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x(x)** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | x(x) | | | | | | x(x) |
| Məzənnə fərqləri | | | | | | x(x) | | | | | x(x) |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | | **x(x)** | **x(x)** | | | | | **x** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | x(x) | x(x) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | x | x | | | | | | | (x) | x |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (x) | | | | | | | | (x) | (x) |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | (x) | x(x) | x(x) | | | | | | x(x) | x(x) |
| **Kapitalın maddələr arasında bölüşdürülməsindən əvvəl 31 dekabr 20X1-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x** |
| Kapitalın maddələr arasında köçürülmələr | | x | (x) | | x(x) | x(x) | | x(x) | | (x)x | |
| **31 dekabr 20X1-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** |
| **20X1-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** |

*Ardı var*

*Ardı*

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 20X2-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | x(x) | x(x) |
| **1 yanvar 20X2-ci il tarixinə düzəlişlərdən sonra qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x(x)** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | x(x) | | | | | | x(x) |
| Məzənnə fərqləri | | | | | | x(x) | | | | | x(x) |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | | **x(x)** | **x(x)** | | | | | **x** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | x(x) | x(x) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | x | x | | | | | | | (x) | x |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (x) | | | | | | | | (x) | (x) |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | (x) | x(x) | x(x) | | | | | | x(x) | x(x) |
| **Kapitalın maddələr arasında bölüşdürülməsindən əvvəl 31 dekabr 20X2-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x(x)** | **x** |
| Kapitalın maddələr arasında köçürülmələr | | x | (x) | | x(x) | x(x) | | x(x) | | (x)x | |
| **31 dekabr 20X2-ci il tarixinə qalıq** | | **x** | **x** | **(x)** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** |
| **20X2-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** | **x(x)** |